# "Gözləyəsi kimim var"

## Nazir Çərkəzoğlunun yaradıcılıq yoluna qısa bir baxış

**Müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarının həyat yoluna böyük bir zaman məsafəsiylə yaratdığı əsərlərin fonunda nəzər saldıqda daxilən qeyri-adi hisslər keçirirsən. Bəzən sevinir, heyrətlənir, nəyə isə təəssüf edir, nədənsə kədərlənir, bəzən də nəyisə yenidən kəşf edirsən.**

Hal-hazırda erməni işğalı altında olan Cəbrayıl rayonunda gözünü dünyaya açan yazıçı qardaşımız Nazir Çərkəzoğlu ”Ağbulağın göz yaşları”, ”Vahid Tumaslı dünyası”, ”Gözləyəsi kimim var” və ”Gəyən düzü”adlı roman, povest və hekayələr toplusu ilə öz oxucusunu sevindirən bir yazıçıdır. Bugünkü ədəbiyyatımızda öz dəsti-xətti ilə seçilən Nazir Çərkəzoğlunun əsərlərini oxuyub, yaradıcılıq yolunu nəzərdən keçirdikcə doğulduğu torpağa sonsuz məhəbbətlə bağlı olan bir insanın vətənpərvər baxışları canlanır göz önündə. Uşaqlıq illərindən başlayaraq yaşadığı dövrdə elə bir hadisə yoxdur ki, o hadisə yazıçını düşündürüb narahat etməsin və sonradan onun yaradıcılığında taleyüklü bir əsərə çevrilməsin. Buna görə də Nazir Çərkəzoğlu imzası zamanın nəbzini ən doğru şəkildə tuta bilən imzalardandır. Onun həyata baxışında düşüncə tərzinin aydınlığı əsərlərində səmimi bir dillə və realist bir şəkildə öz əksini tapmışdır. Yazıçı öz qələmi ilə təsvir etdiyi hadisələrə həssas bir formada yanaşır və dolğun bir formada təsvir etdiyi hadisələri oxucusuna sevdirə bilir. Əsərlərini əsasən bildiyi həyat həqiqətlərinə uyğun formada yanaşmaqla oxucularına təqdim edir. ”Gəyən düzü” romanını oxuduqca ulu babalarımızın yaşamış olduğu bir dünyada, insanların torpağa bağlılığı göz önündə canlanır. Eyni zamanda, romanda elat dünyasının özünəməxsus yaşam tərzindən ətraflı məlumat verilir.

Nazir Çərkəzoğlunun əsərlərindəki obrazlar öz xarakterinə daha çox oxşayır: təbii və məğrur, milli və ümumdəyərlidir. Doğrusunu desək, əsərlərində təsvir etdiyi obrazların taleyi onun özünün şəxsiyyəti ilə üst-üstə düşür və bir bütövlük təşkil edir. Əsasən gerçəklikdən alınan süjet xətti isə ürəkdən axıb gələn yanğılı hisslər ilə özünəməxsus formada oxucusunun səmimiyyətini qazanır. Onun dili və üslubu da sadə və təbiidir.

Eyni zamanda yazılarında uşaqlıq illərini, doğulduğu elobanı tez-tez xatırlamaqla oxucusunu özü ilə bərabər o yerlərə səyahətə dəvət edir. ”İndi xatirələrin bərq vuran mayak işığında o yerlərin xınalı daşları, civildəşən quşları, bənövşəsi, nərgizi, maralçiçəyi, boy verib boylanan ağacları, vüqarlı, nisgilli başı qarlı dağları necə də ecazkar, əlçatmaz görünür ilahi!”

Göründüyü kimi yazıçının doğulub boya-başa çatdığı, uşaqlıq və gənclik illərinin keçdiyi yerlər xəyalən ziyarət olunan məkanlardır. ”Ağbulağın göz yaşları”, ”Gəyən düzü”, ”Gözləyəsi kimim var” kitablarını vərəqləyib tədqiqat xarakterli yazıları nəzər süzgəcindən keçirdikcə Nazir müəllimin yaradıcılıq dairəsinin nə qədər geniş olduğunun şahidi olursan. ”Gözləyəsi kimim var” kitabında xalqımızın mifik yaddaşına xeyir xəbər müjdəçisi kimi həkk olunan sağsağana həsr olunmuş ayrı-ayrı şairlərin şeirləri publisistik bir dillə təhlil olunur, o cümlədən, Əzəli Azərbaycan torpağı olan Zəngəzur mahalında yaşamış aşıq Elmanın həyat yoluna nəzər saldığı ”Qara sazın hekayəsi” kimi araşdırma tələb edən yazıları yazıçı-publisisti oxucularına daha çox sevdirən məqamlardandır.



Dahi mütəfəkkirlərdən birinin belə bir fikri var: ”Əsl yazıçı odur ki, o sərhədlərə, çərçivələrə meydan oxuyur. Əsl yazar da odur ki, o məhdud çərçivələrə qarşı üsyan edir, hayqırır”. Bax, Nazir Çərkəzoğlunun üstün cəhətlərindən biri də məhz budur. Qələmə aldığı bütün əsərlərində yeni düşüncələri aydınca görünür. Bəs nədir onu oxucularına sevdirən? Cavab çox sadədir: bədii sözün müqəddəsliyini, paklıq və duruluğunu qoruyub saxlamaq qabiliyyəti, gerçək aləmdə görüb müşahidə etdiklərini düşüncələrinin süzgəcindən keçirib əks etdirməyi və qələmə aldığı əsərlərinin dilinin sadə və anlaşıqlı olması.

Nazir Çərkəzoğlu həm də zəngin həyat təcrübəsinə malik olan bir yazıçıdır. Onun söz dünyası müasirləri üçün qiymətli qida mənbəyi ola biləcək incilərlə doludur. Elə buna görədir ki, Nazir Çərkəzoğlunun adı çəkiləndə gözlər önündə zəhmətkeş və istedadlı müəllimin, yaradıcı ziyalının, xeyirxah və qayğıkeş insanın səmimi siması canlanır. Çünki o bütün əsərlərində oxucularına, əsasən də gənclərə qədim və keşməkeşli tariximizi tarixi faktlarla çatdırmağa çalışır. Son dövrümüzün hadisələrini, ata-baba yurd yerlərindən didərgin düşmüş insan selini belə xarakterizə edir. ”Bir vaxtlar dağlara yaylaqlara üz tutan elat indi Qərbi Azərbaycana yox, əks istiqamətə--Şərqdən-Qərbə axın edirdilər. Sanki yer kürəsi məhvərindən çıxmışdı”.

Yazıçı üçün dünyanın naz nemətlər ilə dolu olan ağuşunda çörək həsrətilə yaşayanların acıları və məhrumiyyətləri də böyük bir dərdə çevrilir. Qaçqın-köçkün həyatını dəqiq faktlarla qələmə alan yazıçı yurd-yuvasından didərgin salınan qardaşlarımızın qarşılaşdıqları çətinlikləri, insan selinin çoxluğundan yaranan ərzaq qıtlığını da nəzərindən qaçırmır və o günləri ürək ağrısı ilə xatırlayır. ”Gecədən səhərədək çörək növbəsində insanlar tələf olur, cəhənnəm əzabı çəkirdilər. Bu qaçqınlıqdan nəinki gələnlər, elə şəhər əhli, yerli sakinlər də əziyyət çəkir, səhəri dirigözlü açırdılar”.

Bütün yaradıcılığı boyu diqqət mərkəzində saxladığı məqamlardan biri isə ömrünü-gününü insanlar üçün sönməz məşələ çevirənlərin üstün tutulmasıdır. Fəqət o öz çiyinlərinin də belə bir yük daşıması ilə fəxr edir. Son illərin hadisələri, düşmən tapdağı altında inləyən torpaqlarımızın harayı, sönmüş ocaqların nisgili, didərginlik dərdi yazıçını sanki möhkəmləndirərək mətinləşdirir. Elə bu cəhətlər də gözəl yazıçımız Nazir Çərkəzoğlunu bütöv yaradıcılığı ilə birlikdə gözlərimiz önündə daha da ucaldır və ülviləşdirir. Lakin sevimli yazıçımızın yaradıcılığında publisistik duyğular daha üstünlük təşkil edir. O bəzi əsərlərində təsvir etdiyi obrazların daxili aləmini açmaqda bəzən çətinlik çəkir. Onların hiss və duyğularının təsvirinə səthi yanaşır.

**Bütün bunlara baxmayaraq, inanırıq ki, yazıçı qardaşımız Nazir Çərkəzoğlu bundan sonra da yeni-yeni əsərləri ilə bizləri sevindirəcək və böyük yaradıcılıq uğurlarına yol açacaqdır.**

**Vaqif Ağalarov**
**Naxçıvan Televiziyasının baş redaktoru**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı N
kod: 20011
Müxbir hesab: 013
S.W.I.F.T. Bik: AIIE
38070019411100451111 V
İndeks:0107 Qeydiyyat